# Bir insana din qardaşını üç gecədən artıq tərk edərək küsülü qalması caiz deyildir, onlar görüşdükdə birisi digərindən üz çevirər, digəri də bunu təkrar edər. Sözsüz ki, onların ən xeyirlisi birinci salamlaşandır

Əbu Əyyub Əl-Ənsaridən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Bir insana din qardaşını üç gecədən artıq tərk edərək küsülü qalması caiz deyildir, onlar görüşdükdə birisi digərindən üz çevirər, digəri də bunu təkrar edər. Sözsüz ki, onların ən xeyirlisi birinci salamlaşandır".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) müsəlmanın din qardaşını üç gecədən artıq tərk edərək küsülü qalmasını, üz-üzə gəldikdə ona salam verməyərək danışdırmamasını qadağan etmişdir. Bu iki küsülü kəsin ən xeyirlisi, aranı düzəltməyə çalışan, önə keçib birinci salam verəndir. Burda "hicr", yəni tərk etmək sözündə məqsəd, nəfsi üçün hicr etməyə aiddir. Amma Allah rizası üçün günahkarları, bidət əhlini, əxlaq cəhətdən pis yoldaşları tərk etmək, bu müəyyən bir vaxtla məhdudlaşmır, çünki bu növ insanları tərk etmək ümumi xeyir və fayda üçündür və islah olunduqca onlara qarşı tətbiq olunan hicr də aradan qaldırılır.

https://www.sunnah.global/hadeeth/az/show/5365